# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 233** **Bakı şəhəri, 1 may 2024-cü il**

**“Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası”nın təsdiq edilməsi haqqında**

“Energetika haqqında” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1006-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 dekabr tarixli 2372 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi:

2.1. enerji balansının tərtib edilməsi üçün energetika subyektlərindən alınan məlumatlara dair hesabat formaları və metodoloji izahları altı ay müddətində təsdiq etsin;

2.2. bu Qərarın 2.1-ci bəndində qeyd olunan hesabat formalarının və metodoloji izahların, habelə hər il “Azərbaycan Respublikasının enerji balansı”nın layihəsinin tərtib edilməsi və icrasına nəzarət məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respub-likasının Dövlət Neft Şirkəti, “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti, “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti və Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri də daxil olmaqla daimi fəaliyyət göstərən İşçi qrupun yaradılmasını və onun fəaliyyətinin əlaqələndirilməsini təmin etsin;

2.3. rəsmi internet səhifəsində “Azərbaycan Respublikasının enerji balansı” adlı məhdud giriş imkanlarına malik elektron məlumat bazasının on ay müddətində yaradılmasını təmin etsin;

2.4. ölkədə istehsal (tədarük) olunan enerji və yanacaq növlərinin istiliktörətmə qabiliyyəti üzrə göstəricilərini müəyyən edərək, “Enerji məhsullarının şərti ölçü vahidlərinə orta çevrilmə əmsalları”nı səkkiz ay müddətində təsdiq etsin və rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 2.3-cü bəndində nəzərdə tutulmuş tədbirin həyata keçirilməsini təmin etmək məqsədilə müvafiq maliyyə vəsaitinin ayrılması üçün zəruri tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi rəsmi statistika məqsədləri üçün ölkə üzrə enerji balansının beynəlxalq metodologiyalara uyğun olaraq hər il iyul ayının sonunadək tərtib edilməsini və rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**